# BDU XATİRƏLƏRDƏ

Məzun olduğum Bakı Dövlət Universitetinin rektoru Elçin müəllimi, Bakı Dövlət Universitetinin kollektivini, tələbələrini və məzunlarını yüzillik yubiley münasibətilə təbrik edirəm.

Bakı Dövlət Universitetinin məzunu kimi, universitetlə bağlı təəssüratları bölüşmək imkanı mənim üçün tarixi şans və əvəzolunmaz bir məqamdır. Ali təhsilin hər üç səviyyəsi – bakalavriat, magistratura və doktorantura üzrə təhsilim BDU ilə bağlıdır.

1996-cı ildə Mingəçevir şəhər liseyini bitirib BDU-nun Tətbiqi riyaziyyat və kibernetika fakültəsinə qəbul oldum. 2002-ci ildə "İqtisadi kibernetika" ixtisaslaşması üzrə magistratura təhsil səviyyəsini fərqlənmə diplomu ilə bitirdim. 2014-cü ildə iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya işimin seminarı və müdafiəsi Bakı Dövlət Universitetində təşkil olundu. Hər bir gənc alim üçün önəmli olan müdafiəmin məhz doğma universitetdə olması mənə fərəh hissi, möhtəşəm duyğular yaşatdı. Bu mənada qürur duyuram ki, Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan, Azərbaycan təhsilinə və elminə xidmət edən Bakı Dövlət Universitetinin məzunuyam və həyat yolum bu universitetlə bağlıdır.

Bakı Dövlət Universitetində təhsil almaq üçün məni sövq edən amillər vardır.

Müsəlman Şərqində ilk dünyəvi universitet olaraq yaranması, yarandığı




tarixdən bu günə kimi digər ali təhsil müəssisələri ilə müqayisədə həmişə liderliyini və nüfuzunu qoruyub saxlaması, keyfiyyətli təhsilinə və maddi-texniki bazanın zənginliyinə görə ölkəmizdə fəaliyyət göstərən ali məktəblərdən fərqlənməsi, bu ali məktəbin məzunu olmuş neçə-neçə nüfuzlu simanın həyat salnaməsi, onların uğurlar qazanması belə bir universiteti seçməyimə motivasiya yaratdı.

Bakı Dövlət Universiteti mənə təkrarolunmaz, mənalı, əvəzolunmaz tələbəlik illərini yaşatdı, həyatımda yadda qalan izlər buraxdı və bu universitet mənim üçün doğmalaşdı.

Universitetin sayəsində respublikamızın ayrı-ayrı bölgələrindən yeni dostlar qazandım. Qrupumuz həm qəbul balına görə, həm də adına görə digər qruplardan fərqlənirdi. İK-7... yəni "iqtisadi kibernetika 7" adlanırdı. Dekanımız professor Rizvan Paşayev deyərdi ki, 7 rəqəmi müqəddəsdir. Bu rəqəmin özünü belə üzərinizdə daşımağınız böyük məsuliyyətdir. Siz bu günün tələbələri, gələcəyin iqtisadçıları, riyaziyyatçıları olacaqsınız. Dörd il sonra həyatda tutacağınız yüksək mövqeyə görə hər biriniz universitetin auditoriyalarına, müəllimlərə, etdiyiniz səhvlərə və burada qazandığınız biliklərə, bacarıqlara minnətdar olacaqsınız. Allah ona rəhmət etsin.

Düşünürəm ki, Bakı Dövlət Universitetinin məzunları işsiz qala bilməzlər, onlar həmişə layiq olduqları yerlərdə mövqelərini tuturlar. Çünki universitetin diplomuna biliyi, bacarığı və qabiliyyəti ilə yiyələnmiş məzunlar Azərbaycan cəmiyyəti tərəfindən hər zaman hörmətlə qarşılanırlar. Təhsilini uğurla başa vuran qrup yoldaşlarımın əksəriyyəti hazırda idarəetmə orqanlarında, hüquq-mühafizə, təhlükəsizlik orqanlarında, hərbi hissələrdə, ali təhsil müəssisələrində, bank sektorunda və iqtisadiyyatın digər sahələrində çalışırlar.

Universitet mənim şəxsiyyət kimi formalaşmağımda əsaslı rol oynadı, uğur qazanmağı, sərbəst qərarlar verməyi öyrətdi. Bu illər ərzində gələcək üçün planlar qurmaq, məqsəd qoymaq və məqsədə nail olmaq üçün hədəfləri müəyyənləşdirmək, inkişaf etmək, maneələri aşmaq kimi xüsusiyyətlər universitet həyatımda formalaşdı.

Bakı Dövlət Universitetinin mühiti nəinki mənə, ailəmizə də nüfuz etmişdir. Ailədə dörd uşaq olmuşuq. Hamımız ali təhsilliyik. Üçümüz bu universitetdə həm bakalavriat, həm də magistratura üzrə təhsil almaq səadətinə nəsib olmuşuq. Universitet müəllimləri bizi öyrətməklə, tərbiyə etməklə kifayətlənmirdilər. Tələbələrdə dünyagörüşü formalaşdırır, tələbəni yaradıcı insan kimi yetişdirir və düzgün məqsədə doğru istiqamətləndirirlər. Bakı Dövlət Universitetinin müəllimlərində yüksək mədəniyyətə malik olmaq, mərhəmətli, mehriban, təvazökarlıq kimi insani keyfiyyətlər cəmlənmişdir. Həm özlərinə, həm də tələbələrə qarşı tələbkardırlar və eyni zamanda, tələbələrin fikirlərinə hörmətlə yanaşırlar.Universitetin mənə bəxş etdiyi töhfələrdən biri də öz peşələrini sevən, tədris etdikləri fənləri ali səviyyədə bilən professor-müəllim heyətindən elm öyrənməyim oldu. Qarşılıqlı hörmət və humanistlik əsasında münasibət quran müəllimlərimi duyğusal hisslərlə həmişə xatırlamışam. Onların bəziləri ilə bu günə kimi sıx əlaqələrim var. Tədrisdə, iş prosesində müəyyən məsələlərin həllində ziddiyyətlər, anlaşılmazlıqlar olduqda onlarla məsləhətləşirəm, tövsiyələrini dinləyirəm.

Qazandığım uğurlara və əldə etdiyim biliklərə görə Bakı Dövlət Universitetinə və universitet müəllimlərimə minnətdaram.

Əminliklə deyə bilərəm ki, doğma universitetim mənə yalnız, sadəcə, bilik verən tədris müəssisəsi olmamış, həm də mənə biliklərin müstəqil qazanılması üçün istiqamətlər verən ali təhsil mərkəzi olmuşdur, bu mərkəzdə müəllim tədris etdiyi fənni müxtəlif yollarla sevdirməyi bacarır, öyrənməyə sövq edir.

Müəllimlik peşəsini mənə sevdirən və müəllim olmaq istəyimin yaranmasına səbəb müəllimlərimin pedaqoji səriştələri olmuşdur. Geniş dünyagörüşünə, mənəvi dəyərlərə, yüksək mədəniyyətə, intellektə malik, etik qaydaları gözləyən müəllimlərim məndə ali təhsil müəssisəsində pedaqoq işləmək arzumu gücləndirdi. Odur ki, əmək fəaliyyətimi Mingəçevir Dövlət Universiteti ilə bağlamağa qərar verdim. Bu gün həm müəllim, həm də kafedra müdiri kimi çalışdığım Mingəçevir Dövlət Universitetində məhz Bakı Dövlət Universitetinin məzunu olaraq fəaliyyət göstərməyim qürurvericidir.

Sonda bir daha fəxarət hissi ilə deyirəm ki, həyat yolum Bakı Dövlət Universiteti ilə bağlı olduğu üçün və universitet mühitindən faydalandığım üçün özümü şanslı sayıram. Biz məzunlar bu gün də Bakı Dövlət Universitetinin inkişafını yaxından izləyirik, hər bir fəaliyyətimizdə Bakı Dövlət Universitetinin adını doğrultmağa çalışırıq və universitetimizlə daim fəxr edirik. Doğma universitetimizin 100 illiyi mübarək!

***Cəmilə Musayeva***
*Mingəçevir Dövlət Universiteti,*
*kafedra müdiri, dosent,*
*BDU-nun Tətbiqi riyaziyyat və*
*kibernetika fakültəsinin məzunu,*
*"BDU xatirələrdə" yazı müsabiqəsinin qalibi*